Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Allaha Xidmət Edən Oğlan – Şamuel



Müəllif: Edward Hughes
İllüstrasiya edən: Janie Forest; Alastair Paterson
Uyğunlaşdıran: Lyn Doerksen
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Xanna yaxşı adamla, Elqan ilə evli olan yaxşı bir qadın idi. Onların hər ikisi Allaha ibadət edirdilər və başqalarına xeyirxahlıq göstərirdilər. Ancaq Xannanın həyatında bir şey çatışmırdı. O, övlad istəyirdi. Ah, o necə də övladının olmasını istəyirdi! O gözlədi, dua etdi, ümid etdi və bir daha gözlədi. Övladı olmadı!





Xanna hər il Allahın ibadətgahında Allaha ibadət etməyə gedirdi. Bir il o, Allaha söz verdi ki, əgər Allah ona oğul verərsə, oğlunu həmişəlik Allahın xidmətçisi olmağa verəcək.



Yaşlı kahin Eli Xannanı dua edərkən gördü. O, Xannanın şərabdan sərxoş olduğunu fikirləşdi. Çünki onun dodaqları tərpənirdi, lakin səsi çıxmırdı. Eli Xannanı danladı!



Ancaq Xanna Eliyə övlad üçün duası və Allaha olan vədi haqqında dedi.  Eli cavab verdi: “Salamat get, qoy İsrailin Allahı səni muradına çatdırsın”.  Elinin sözləri Xannaya ümid verdi.

Tezliklə Xannanın ürəyini böyük bir sevinc bürüdü. “Rəbb onu xatırladı” və onun duasına cavab verdi. Onun və Elqananın Şamuel (“Allah tərəfindən eşidildi” deməkdir) adında balaca bir oğlu oldu. Bəs Xanna Rəbbi və Ona verdiyi vədi xatırlayacaqmı?





Xanna hər il getdiyi kimi, bu il ibadətgaha getmədi.  Ah, olmaz! O, Allaha verdiyi vədi pozmuşdu?  Xeyr, Xanna Şamuelin ibadətgahda yaşaması və Allaha xidmətində Eliyə kömək etməsi üçün kifayət qədər böyüməsini gözləyirdi. Sonra o, Şamueli ibadətgaha gətirdi.



Allah Xannanın böyük sadiqliyinə ehtiram etdi. Şamueldən sonra Allah ona daha üç oğul və iki qız verdi.  Hər il Xanna Allaha ibadət etmək və Şamuel üçün hazırladığı yeni libası gətirmək üçün ibadətgaha gedirdi.



Şamuel Elinin yeganə köməkçisi deyildi. Elinin oğulları Xofni və Pinxas da orada işləyirdi. Amma onlar pis işlər görərək, Allaha ehtiram göstərmirdilər və hətta ataları Eli yalvarsa belə, onlar dəyişmirdilər. Eli onların qurbangahda işləmələrinə izin verməməli idi. Amma Eli bunu etmədi.



Bir gecə Şamuel bir səsin onu çağırdığını eşitdi.  Oğlan elə bildi ki, onu çağıran Elidir. O dedi: “Buradayam”. Eli dedi: “Mən səni çağırmadım”.  Bu, üç dəfə təkrarlandı. Sonra Eli başa düşdü ki, Allah Şamuel ilə danışmaq istəyir.



Eli Şamuelə dedi: “Əgər O, səni çağırsa, 'Danış, ya Rəbb, qulun Səni eşidir' deməlisən”. Allah yenidən çağırdı və Şamuelə çox mühüm bir xəbər verdi.

Səhər Eli Şamueli çağırdı.  O soruşdu: "Rəbbin sənə dediyi şey nə idi?"  Gənc Şamuel hər şeyi ona danışdı.  Bu dəhşətli bir xəbər idi - Allah Xofni və Pinxasın çox pis olduqlarına görə Elinin bütün ailəsini dağıdacaqdı.



Allahın xəbərdarlığı həyata keçdi.  Filiştlilərlə döyüşdə Elinin iki pis oğlu Allahın Əhd sandığını İsrail ordusunun önündə aparırdı. Düşmən Sandığı ələ keçirdi və çoxlu sayda İsraillilərlə birlikdə Xofni və Pinxası da öldürdü.  Eli bunu eşidəndə taxtından yıxıldı, boynunu sındırdı və həmin gün öldü.



Allahın Əhd sandığı Filiştlilərə bəlalar gətirdi.  Onlar onu öz yalançı allahları olan Daqonun məbədinə qoydular.  Səhər tezdən Daqon bütü üzüstə yerə düşmüşdü.  Filiştlilər Daqonu qaldırdılar, amma ertəsi gün səhər o yenidən düşmüşdü.  Bu dəfə Daqon hissələrə bölünmüşdü.





Filiştlilər arasında xəstəliklər və ölüm yayıldı. Filiştlilər Allahın onları cəzalandırdığını görmək üçün iki inəyi arabaya qoşdular, Əhd sandığını da arabaya qoydular.  Ancaq onlar inəklərin balalarını saxladılar.  Onlar dedilər: “Əgər inəklər İsrailə getsələr və öz buzovlarını tərk etsələr, biz biləcəyik ki, bunu Allah etdi”. Beləliklə, inəklər getdi!



Artıq yetkinləşmiş Şamuel bütün İsrail xalqına danışdı. “Əgər bütün ürəyinizlə Rəbbə tərəf dönsəniz… O, sizi Filiştlilərin əlindən qurtaracaq”. Xalq Allahın sadiq peyğəmbərinə itaət etdi. Şamuelin yaşadığı müddətdə Rəbbin əli Filiştlilərə qarşı oldu.

# Allaha Xidmət Edən Oğlan - Şamuel

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Şamuel 1-7

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

17

60

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

gər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**